**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**
**F.KÖÇƏRLİ adına RESPUBLİKA UŞAQ KİTABXANASI ELMİ-METODİKA ŞÖBƏSİ**

**Xalq yazıçısı, dramaturq Mirzə İbrahimovun anadan olmasının 100 illiyi münasibətilə**

# Ədəbiyyatımızın böyük dayağı
**(metodik vəsait)**

**BAKI- 2011**

## Ön söz

Kitabxanaçılara təqdim etdiyimiz bu metodik vəsaitdə əsas məqsədimiz Azərbaycan ədəbiyyatının inkişafında çox mühüm rolu olan Mirzə İbrahimovun yaradıcılığının təbliği etmək, əsərləri haqqında ətraflı məlumat verməkdir.

Hər bir kitabxanaçı bu vəsaitdən faydalana, burda olan müxtəlif tədbirlərdən səmərəli istifadə etməklə Mirzə İbrahimovu oxucularına daha da yaxşı tanıda bilər.

Metodik vəsait iki hissədən ibarətdir:

I. Həyat və yaradıcılığı

II. Yubiley tədbirlərinin keçirilməsi.

Metodik vəsaitdən uşaq, məktəb, lisey, kollec, gimnaziya, kütləvi kitabxanaların kitabxanaçıları istifadə edə bilər.

## I. Həyat və yaradıcılığı

***"Lap qədim zamanlardan bədii yaradıcılığı, ədəbiyyat və incəsənət əsərlərini ruhun, qəlbin qidası adlandırırlar. Mənə elə gəlir ki, bu çox doğru tərifdir. Axı, həqiqətən də əsl sənət əsərləri insanın ruhunu qaldırır, ürəyini sevinclə, yüksək duyğular və ehtiraslarla doldurur, yəni insanı mənən, fikrən ucaldır, mübarizə qabiliyyətini, həyat eşqini artırır."***

**Mirzə İbrahimov**

Həqiqi sənət əsərləri yaradan Azərbaycan ziyalıları içərisində xalq yazıçısı, dramaturq, ədəbiyyatşünas, alim Mirzə İbrahimovun yaradıcılıq aləmində özünəməxsus yeri var. Ədibin keçdiyi çətin və şərəfli ömür yolundan görmək olur ki, Mirzə İbrahimov 1930-cu illərdən başlayaraq ömürünün sonuna qədər ədəbi, elmi işini böyük dövlət əhəmiyyətli ictimai fəaliyyət sahələri ilə sıx əlaqələndirərək ədəbiyyatımızın və mədəniyyətimizin nüfuzlu nümayəndələrindən biri kimi yüksəlmişdir. O, bir yazıçı və dövlət xadimi kimi həmişə tükənməz yaradıcılıq qüvvəsini, qəlbinin hərarətini, zəngin həyat təcrübəsini xalqa, vətənə həsr etmişdir.
Mirzə İbrahimov 1911-ci il oktyabrın 15-də (28-də) Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Evə kəndində anadan olmuşdur. 1918-ci ildə atası və böyük qardaşı ilə Bakıya gəlmişdir. 1919-cu ildə atası vəfat edəndən sonra kiçik yaşlarından Balaxanı və Zabrat kəndlərində muzdurluq edib öz zəhməti ilə bir tikə çörək qazanmışdır. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra fabrik-zavod məktəbində oxumuş və işləmişdir. Bədii yaradıcılığa da Zabrat fəhlə ədəbiyyat dərnəyinin üzvlüyündən başlamışdır. Onun "Qazılan buruq" adlı ilk şeiri 1930-cu ildə "Aprel alovları" məcmuəsində dərc olunmuşdur. Bundan sonra dövri mətbuatda şeirləri nəşr olunmuşdur. O, ilk tənqidi, publisist məqalələrini, hekayə və oçerklərini də 1930-cu illərdə yazmışdır. 1932-ci ildə beşilliklərin nəhəng tikintilərini və sosialist sənayesinin inkişaf sürətini öyrənmək üçün Ukraynaya-Donbas şaxtalarına, Dnepropetrovsk sənaye müəssisələrində səfərdə olmuşdur. "Giqantlar ölkəsi" oçerklər kitabını qələmə almışdır. Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun ikiillik hazırlıq şöbəsində təhsil aldıqdan sonra partiya onu Naxçıvan MTS siyasi şöbəsinə — "Sürət" qəzetinin redaktoru vəzifəsinə göndərmişdir (1933). SSRİ Elmlər Akademiyasının Leninqraddakı Şərqşünaslıq İnstitutunun aspiranturasında təhsil almışdır (1937). M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının direktoru, sonra isə XKS-ya incəsənət işləri idarəsinin rəisi vəzifəsində çalışmışdır. Azərbaycan SSR xalq maarif komissarı vəzifəsində çalışmışdır (1942-1946). Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin sədri (1946-1954), birinci katibi (1965-1975), SSRİ Yazıçılar İttifaqı idarə heyətinin katibi (1965-1975), Azərbaycan Respublikası Nazirlər Soveti sədrinin müavini (1946-1950), Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin sədri (1954-1958) vəzifələrində işləmişdir. Ömrünün axırınadək isə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, çoxcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin redaksiya heyətinin üzvü olmuşdur.

Mirzə İbrahimovun İkinci Dünya müharibəsinin ağır sınaq illərində əsərləri, istərsə də fabrik-zavodlarda, kəndlərdə əsgəri hissələrdə odlu-alovlu çıxışları ilə

qələbəyə, düşmənə isə nifrət və qəzəb aşılayırdı. Qeyd edim ki, yazıçı 1941-ci ildə Sovet Ordusu sıralarında Cənubi Azərbaycanda olarkən “Vətən yolunda” qəzetinin məsul redaktoru vəzifəsində işləmişdir. 1942-ci ildə Uzaq Şərqdə Xabarovsk, Vladivostok və s. hərbi dairələrdə 416-cı diviziyanın döyüşçüləri ilə görüşlərdə iştirak etmişdir. Bu dövrlərdə hekayə, povest və romanlarla yanaşı, səhnə əsərlərini qələmə almışdır: “Həyat” (1935), “Madrid” (1937), “Məhəbbət” (1941) pyeslərindən iyirmi il fasilədən sonra “Kəndçi qızı” (1961), “Yaxşı adam” (1963), “Közərən ocaqlar” (1967) pyesləri ilə Azərbaycan dramaturgiyasını zənginləşdirmişdir. V.Şekspirin “Kral Lir”, “On ikinci gecə, yaxud hər nə istəsəniz”, A.N.Ostrovskinin “Quduz pullar”, “Müdrik olan hər kəsə kifayətdir sadəlik”, A.P.Çexovun “Üç bacı”, Molyerin “Don Juan” pyeslərini Azərbaycan dilinə tərcümə etmişdir. Yazıçının əsərləri keçmiş SSRİ xalqlarının dillərinə və bir çox xarici dillərə tərcümə edilmişdir. 3 dəfə Lenin ordeni, Oktyabr inqilabı ordeni və digər orden və medallarla təltif olunmuşdur.

1993-cü il dekabrın 17-də Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

Xalq yazıçısı Mirzə İbrahimovun həyatı və yaradıcılığı zəngin və çoxşaxəlidir. Mirzə İbrahimov ədəbiyyat tarixində bir nasir, qüdrətli dramaturq, mədəniyyət tarixində ictimai xadim kimi özünəməxsus yer tutur. Onun misilsiz yaradıcılığı ədəbiyyat və mədəniyyət tariximizdə əvəzsiz bir iz buraxmışdır. 1930-cu ildən Azərbaycan yazıçısı Seyid Hüseynin rəhbərliyi ilə Zabratda təşkil olunmuş ədəbiyyt dərnəyində iştirak etməklə mətbuatda imzası görünməyə başlayan Mirzə İbrahimovun əsərləri artıq oxucuların diqqətini cəlb etmişdir.

Hələ onun ilk yazılarında – şeirlərində, hekayə və oçerklərində günün vacib aktual mövzusu aydın duyulurdu. “Qazılan buruq” “Mədən səsləri”, “Zərbəçi qız”, “On il”, “Dastan”, “Neft”, “Yalandır, yalan” və başqa şeirləri 1930-cu illərin bəhrəsi olsa da müasir dözvrümüzlə səsləşən şeirlərdir. Mirzə İbrahimovun yaradıcılıq imkanları, istedadının özünəməxsus xüsusiyyətləri daha çox bədii nəsrdə, müasir mövzularda yazdığı hekayələrində özünü parlaq və aydın biruzə verirdi. “Zəhra”, “Mələk”, “Qaçaq”, “Qorxulu səs”, “Sənət aşiqləri”, “Balta”, “Anama deyərəm, ha”, “Həyat yolu” yazıçının 1930-35-ci illərdə yazdığı ilk hekayələridir. İnsanın köhnə ailə və əxlaq vərdişlərindən xilas olması, yeni ictimai münasibətlərin təsiri altında dəyişib təzələnməsi, yeniliyə can atması Mirzə İbrahimovun helayələrinin əsas mövzusudur. 1935-ci ildə yazdığı məşhur “Həyat” pyesi yazıçının topladığı zəngin, təzə həyat materialı əsasında yazılmışdır və məhz buna görə pyes həayti və inandırıcı çıxmışdı. “Həyat” pyesi nəinki müəllifin, bütövlükdə Cəfər Cabbarlıdan sonrakı dramaturgiyanın görkəmli yaradıcılıq uğuru olaraq meydana çıxdı və bu pyes 1935-ci ildə müsabiqədə yaxşı əsər kimi qiymətləndirilərək Azərbaycan Dövlət Dram Teatrında tamaya qoyuldu, böyük müvəffəqiyyətlər qazandı. Bundan sonra bir-birinin ardınca aktual və əhəmiyyətli mövzularda “Madrid”, “Məhəbbət” pyeslərini yazdı.

Mirzə İbrahimovun yaradıcılığında Cənubi Azərbaycan həyatının təsviri geniş və əhəmiyyətli yer tutur. “Azad”, “Tonqal başında”, “İztirabın sonu”, “İki həyat” və s. hekayələrindən ibarət olan “Cənub hekayələri” silsiləsini yaradır. Sonralar yazıçı “İran qızı” (1935), “Bir günəşin işıqları” (1959) kekayələrini də bu silsiləyə daxil etmişdir. “Cənub hekayələri” yazıçının müharibə illərində Cənubi Azərbaycanda

olarkən topladığı zəngin, maraqlı həyati müşahidələrinin məhsuludur. Bu hekayələri yazdığı dövrdə yazıçı eyni zamanda həmin mövzuda “Gələcək gün” romanını yaratmışdır.

İlk romanın parlaq müvəffəqiyyətindən sonra yazıçı “Böyük dayaq”, “Pərvanə” romanlarını, “Kəndçi qızı”, “Yaxşı adam” komediyalarını, “Közərən ocaqlar” tarixi dramını və J.B.Molyerin məşhur “Don Juan” komediyasının motivləri əsasında “Bəşərin komediyası” dramını yazdı.

Ədəbi fəaliyyəti boyu Mirzə İbrahimov ədəbiyyatşünas, tənqidçi kimi də məşhurlaşmışdı. O, klassik və müasir ədəbiyyat haqqında “Həyat və ədəbiyyat” (1947), “Xəlqilik və realizm cəbhəsindən” (1961), “Böyük şairimiz Sabir” (1962), “Gözəllik qanunları ilə” (rus dilində 1964), “Ədəbi qeydlər” (1970) və s. kitabların müəllifidir. Qeyd etmək istəyirəm ki, Mirzə İbrahimovu görkəmli publisit adlandırsaq yanılmarıq. O, ən görkəmli Azərbaycan publisistlərindən biri olub. “Sarı sim” (1958), “Mənim ömür kitabım” (rus dilində, 1979) kitabları, çoxlu yol qeydləri, aktual ictimai-siyasi mövzularda yazılmış məqalələri Mirzə İbrahimovu qızğın alovlu publisist əsərlərindəndir.

Mirzə İbrahimov yaradıcılığında uşaqları da yaddan çıxarmamış, onlar üçün “Pərvizin həyatı” kimi povect, “Pələng və nsan”, “Şairin yadigarı”, “Çobanın məsləhəti” və bir çox hekayələr yazmışdır.

Mirzə İbrahimov – insanın səadəti və azadlığı, xalqın sosial və mənəvi tərəqqisi naminə yaşayan, yaradan yazıçı, görkəmli xadimdir. Onun yaradıcılığı zəmanəmizin oxucularımıza əvəzsiz xidmətinin gözəl nümunəsidir.

## II. Yubiley tədbirlərinin keçirilməsi.

Xalqımızın böyük və sevimli yazıçısı Mirzə İbrahimovun anadan olmasının 100 illik yubileyi mədəniyyət ocaqlarında, mədəni-maarif müəssisələrində dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunmalıdır. Bu yubiley ilə əlaqədar uşaq kitabxanalarında Mirzə İbrahimovun ədəbi irsinin təbliği üçün geniş tədbirlər planı həyata keçirilməlidir. Kitabxanalarda çoxsaylı oxucu kütləsinin sorğularını ödəmək məqsədilə kitabxanaçılar həm yazıçının müxtəlif illərdə nəşr olunmuş əsərlərindən, həm həyat və yaradıcılığına dair ədəbiyyatdan, həm də onun yubileyi ilə əlaqədar nəşr olunan materiallardan geniş istifadə etməlidirlər.

Tədbirlərin başlanğıcı üçün sərgilərin təşkili vacibdir. Sərgilərin təşkilində aşağıdakı başlıqlardan istifadə etmək olar: "Ədəbiyyatımızın böyük dayağı", "Həmişəcavan yazıçı", "Mizə İbrahimov -100". Sərgilərdə və təşkil olunacaq tədbirlərdə görkəmli adamların, elm, mədəniyyət xadimlərinin Mirzə İbrahimov haqqında söylədikləri fikirlərdən istifadə etmək daha yaxşı olar. Nümunələr veririk:

1. Onun qələmi həmişə cilalı, parlaq kəsərli, heç vaxt qınına salınmayan silahdır. Kənd olsun, şəhər olsun, müharibə, sülh olsun, ailə ya ictimaiyyət olsun, kütləvi səhnə ya qəlb aləmi olsun, həyatımızın elə sahəsi yoxdur ki, oraya Mirzənin qələmi nüfuz etməsin, ədibin səsi, sözü eşidilməsin. O, təbiətən fəal, özünə tələbkar şəxsiyyətdir.

**Mir Cəlal**
**yaziçi, ədəbiyyatşünas**

2. Mirzə İbrahimovun dram əsərləri, hekayə və romanları müasir ədəbiyyatımızın zəngin xəzinəsində ən fəxri yerlərdən birini tutur.

**Mehdi Hüseyn**
**Xalq yazıçısı**

3. Mirzə İbrahimov xalqın sevimlisidir, təcrübəli və püxtə bir yazıçıdır.

**Sabit Rəhman**
**Yazıçı, dramaturq**

4. Xoşbəxt o sənətkardır ki, elə sağlığında da onu sevsinlər. Azərbaycan xalqının sevimlisi, istedadlı yazıçı və dramaturqumuz Mirzə İbrahimov məhz belə sənətkarlardandır.

**Mikayıl Abdullayev**
**Xalq rəssamı**

Sərgidə Mirzə İbrahimovun müxtəlif illərdə nəşr olunmuş kitabları və onun haqqında yazılmış tədqiqat əsərlərinin nümayiş etdirilməsi nəzərdə tutulmalıdır. Sərgiyə kitablarla yanaşı yazıçı haqqında dövri mətbuatda çap olunan məqalələrin kartotekasını, yazıçının dram əsərlərinin, pyeslərinin video-yazılarını, kaset və disklərini də əlavə etmək olar. Təşkil edilmiş yubiley sərgisinin qarşısında silsilə tədbirlər – söhbətlər, biblioqrafik icmallar keçirmək planlaşdırılmalıdır.

Mirzə İbrahimovun yubileyi münasibətilə təşkil olunacaq tədbirlərdən biri sual-cavab gecələri, testlər və ya ədəbi viktorinalar ola bilər.

Bütün bunlarla yanaşı Mirzə İbrahimovun yaradıcılığını daha yaxından tanıtmaq üçün kitabxanada oxucular arasında sual-cavab gecəsi keçirmək olar. Sual-

cavab gecəsi kitabxanaçı tərəfindən təşkil olunur və oxuculara suallar təqdim olunur. Mirzə İbrahimov haqqında oxuculara aşağıdakı suallaırı təqdim edə bilərsiniz:

1. Mirzə İbrahimov kimdir?
   Mirzə İbrahimov xalq yazıçısı, dramaturq, ədəbiyyatşünas və publisistdir.
2. Mirzə İbrahimovun ilk yazdığı hekayə hansıdır?
   İlk yazdığı hekayə "Zəhra" adlı hekayə olub (1930).
3. Mirzə İbrahimovun ilk yazdığı şeir hansıdır?
   İlk şeiri "Qazılan buruq" (1930) adlanır.
4. Mirzə İbrahimov yaradıcılığa hansı janrla başlayıb?
   Nəzmlə.
5. Mirzə İbrahimovun hansı əsərləri ilə tanışsınız?
   "Pərvizin həyatı", "Zəhra ", "Güləbətin", "Fırtına quşu", "Azad", "Gələcək gün", "Böyük dayaq", "Pərvanə", və s.
6. İlk pyesi hansıdır və neçənci ildə yazılıb?
   "Həyat" pyesi və 1935-ci ildə.
7. Hansı romanına film çəkilib?
   "Böyük dayaq"
8. Uşaqlar üçün yazdığı hansı əsərləri oxumusunuz?
   "Pərvizin həyatı", "Çobanın məsləhəti", "Pələng və insan" və s.
9. Ədəbi yaradıcılığa neçənci ildə başlayıb?
   1930-cu ildə.
10. "Cənub hekayələri" silsiləsinə yazıçının hansı hekayələri daxildir?
    "Azad", "Tonqal başında", "İztirabın sonu", "İki həyat", "İran qızı", "Bir günəşin işıqları" və s.
11. Xalq yazıçısı Mirzə İbrahimoz nə vaxt vəfat edib?
    1993-cü il dekabrın 17-də Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

Sual-cavab gecəsinin sonunda kitabxanaçı uşaqlara diqqətli olmalarına görə öz təşəkkürünü bildirir, sualları düzgün cavablandıran oxucunu mükafatlandırır və Mirzə İbrahimovun həyat və yaradıcılığı haqqında daha dərindən maraqlanmalarını tövsiyə edir.

Kitabxanada keçirilən maraqlı tədbirlərdən biri də diskusiyadır. Mirzə İbrahimov nəsr əsərləri yazmaqla yanaşı həm də şeir yaradıcılığı ilə də məşgul olub. Bizim oxucularımızın bəzilərinin bu haqda bilgiləri az ola bilər. Yazıçını şeirlərini oxucularla tanış etmək üçün bu diskusiyanın keçirilməsi səmərəli olar. Belə ki, diskusiyada yazıçının hekayələrindən, romanlarından, dramlarından söhbət açdıqdan sonra onun "Diyarımdı mənim", "Tarixin hərəkəti", "Odlar yurdu-ana Vətən", Candı mənə" və bir çox şeirlərini oxuyub oxucuların fikirlərini öyrənmək lazımdır.

Kitabxanada keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecələrdir. Mirzə İbrahimov irsinin təbliği üçün ədəbi-bədii gecələrin keçirilməsi zəruridir.Gecəni **"Ədəbiyyatımızın böyük dayağı"** başlığı ilə adlandırmaq olar. Tədbirin ssenarisini sizə təqdim edirik.

*Səhnə dramaturqun portreti, əsərlərini əks etdirən şəkillər və dramlarının adları ilə bəzədilib. Aparıcılar gecəni açıq elan edirlər.*

I Aparıcı: Salam əziz dostlar, hörmətli qonaqlar!

II Aparıcı: Böyük yazıçımız Mirzə İbrahimovun anadan olmasının 100 illiyinə həsr olunmuş tədbirimizdə hər birinizi xoş gördük!

I Aparıcı: Təkcə Azərbaycanda deyil, respublikamızın hüdudlarından uzaqlarda da xalq yazıçısı Mirzə İbrahimovu yaxşı tanıyır və sevirlər.

I Aaparıcı: Mirzə İbrahimov bütün yaradıcılığı və şəxsiyyəti XX əsr Azərbaycanını təmsil edir. Əgər XX əsr Azərbaycanın mənəvi-əxlaqi, sosial-siyasi mənzərəsi haqqında dolğun təsəvvür əldə etmək istəyiriksə, Mirzə İbrahimovun yaradıcılığından çoxlu öyrənməliyik. Azərbaycanın şimalı və cənubunda baş verən bütün olaylar yazıçının əsərlərində tarixi əsərlərdən daha dolğundur. “Gələcək gün” romanı Azərbaycan ədəbiyyatının yox, ümumən Azərbaycan milli-mənəvi fikrinin gerçəkliyini ifadə edir. “O gün gələcək” – bu cümlə ilə yazıçı bütöv Azərbaycan xalqının arzusunu ifadə edirdi.

II Aparıcı: “Gələcək gün” və “Cənub hekayələri” Mirzə İbrahimovun şah əsərlərindəndir. Bu günün özündə də bu əsərlər öz vətənpərvərlik missiyasını uğurla yerinə yetirirlər.

II Aparıcı: Yazıçının yaradıcılığının ilk mərhələsi üçün ən əlamətdar hadisə “Həyat” (1935) pyesidir. Həmin pyes Azərbaycan ədəbiyyatına güclü realist ənənlərini davam etdirəcək gənc dramaturqun gəlişindən xəbər verirdi. “Həyat”da Azərbaycan kəndindəki yeni ictimai münasibətlər, köhnəlik qalıqlarına qarşı mübarizənin gərginliyi öz dramatik inikasını tapmışdı. Həyat iradəli, ağıllı, təmkinli, sayıq bir azərbaycanlı qadının müvəffəqiyyəti idi. Sonralar onun “Madrid”, “Məhəbbət”, “Kəndçi qızı”, “Yaxşı adam”, “Közərən ocaqlar” pyesləri Azərbaycan Dövlət Akademik Dram Teatrında müvəffəqiyyətlə tamaşaya qoyuldu və Azərbaycan teatrının bəzəyi oldu. Bu əsərlərdə insanların zəngin mənəvi aləmi, sağlam həyat tərzi öz əksini tapmışdır.

I Aparıcı: Mirzə İbrahimovun Böyük Vətən müharibəsi illərindəki fəaliyyəti də qızğın və səmərəli olmuşdur. O, keçmiş Sovet Ordusu sıralarında İranda və Uzaq Şərqdə olmuş, “Vətən yolunda” qızıl əsgər qəzetini redaktə etmiş, şeir, oçerk və publisist məqalələrini çap etdirmiş, vətənpərvərlik mövzusunda “Məhəbbət” pyesini və “Gələcək gün” romanını yazmışdır.

*(Oxucular tərəfindən “Məhəbbət” pyesindən bir parça göstərilir)*

II Aparıcı: Mirzə İbrahimovun oxucular arasında ən çox oxunan əsərlərindən biri də “Böyük dayaq” (1957) əsəridir. Bu əsər cəmiyyətimizin həyatında, adamların şüurunda və xarakterində özünü göstərən əhəmiyyətli və tərbiyəvi romandır. Əsərin baş qəhrəmanı Rüstəm kişi namuslu zəhmət adamı, bacarıqlı kolxoz başçısıdır. Lakin elə bir vaxt gəlib çatır ki, Rüstəm kişi zəhmət adamlarından uzaqlaşmağa başlayır. Ona qarşı yönəldilən hər bir tənqidi düşmənçilik hesab edən Rüstəm kişi xeyirxah adamları bədxahlardan seçə bilmir. Əsəri oxuduqda belə bir nəticəyə gəlirsən ki, cəmiyyətdə yalnız o adam irəli gedib, arzularına çatar və qalib gələ bilər ki, xalqa arxalanmış olsun.

I Aparıcı: Mirzə İbrahimovun başlıca əsərlərinin mövzusu Azərbaycan xalqının tarixi və onun müasir həyatı ilə, Vətənimizin daha xoşbəxt gələcəyi uğrunda aparılan böyük mübarizə ilə bağlıdır. Ədibin “Pərvanə” adlı əsəri də olduqca maraqlıdır. “Pərvanə” romanı Azərbaycan xalqının sinfi-siyasi, mədəni-əxlaqi mənzərəsini, mənəvi intibahını əks etdirir.

II Aparıcı: Görkəmli yazıçımız uşaqları da unutmayıb, “Pərvizin həyatı” kimi povect, “Pələng və nsan”, “Şairin yadigarı”, “Çobanın məsləhəti” və bir çox hekayələr yazıb. İndi isə gəlin məktəblilərin yazıçının “Pələng və insan” hekayəsi əsasında hazırladıqları parçaya tamaşa edək.

*(Səhnə meşə dekarasiyası ilə bəzədilir. Məktəblilər tərəfindən “Pələng və insan” hekayəsindən bir parça qonaqlara təqdim olunur. Səhnəyə Nəzər kişini, pələngi və pişik rolunu ifa edən şagirdlər daxil olur. Pişik səhnədə görünür və gəzişir. Bu vaxt səhnəyə pələng daxil olur. Pişiyi görüb məəttəl qalır.)*

I Oxucu (Pələng): Deyəsən sən də bizdənsən, pələngə oxşayırsan. Bəs niyə bu günə düşmüsən, niyə belə balacalaşmısan?

II Oxucu (Sarı Pişik): Çünki insan əlinə düşmüşəm.

I Oxucu (Pələng): O insan dediyin necə şeydir ki, səni bu hala salıb? Onu mənə göstər, gör sənin acığını necə çıxacağam!

*(Nəzər kişi səhnəyə daxil olur)*

II Oxucu (Sarı Pişik): Bax, insan odur, gəlir.

I Oxucu (Pələng): Ey insan, dayan, səninlə davam var! Niyə bizim həmcinsimizi bu hala salmısan?

III Oxucu (Nəzər kişi): Neynək, davan var, gəl dava edək. Ancaq mən evdən xəbərsiz çıxmışam. Birdən sən mənə qalib gələrsən, meyitimi də götürən olmaz. Qarım yazıqdır, nigaran qalar qoy gedim xəbər verim, gəlim, vuruşaq.

I Oxucu (Pələng): Yaxşı, get qarına xəbər ver, amma tez qayıt.

III Oxucu (Nəzər kişi): Qayıtmağına mən qayıdacağam. Ancaq qorxuram sən məni aldadasan, qoyub qaçasan. Zəhmətim hədər gedə.

I Oxucu (Pələng): Boş-boş danışma! Hələ pələngin meydandan qaçdığını görən olmayıb.

III Oxucu (Nəzər kişi): Acığın tutmasın, pələng qardaş. Mən işimi ehtiyatlı görən adamam. Özüm də kasıb kişiyəm, nə vaxtımı, nə də qüvvəmi boş yerə sərf eləyə bilmərəm. Mən arxayın olmaq üçün ki, sən qoyub qaçmayacaqsan gəl zəhmət çək gir bu çuvala otur, məni gözlə, gedim qarıma xəbər verim, qayıdım, çuvaldan çıx, davamızı həll edək.

I Oxucu (Pələng): Nə deyirəm ki.

*(Pələng çuvala girir. Nəzər kişi çomağını götürüb düşdü pələngin üstünə vur ki, vurasan. Döydükdən sonra çuvalın ağzını açıb onu buraxır)*

III oxucu (Nəzər kişi): İndi get, bir də mənim yolumu kəsmə!

II Oxucu (Sarı Pişik): Hə, indi bildinki, insan necə şeydir?

I Oxucu (Pələng): Bildim qardaş, bildim!

II Oxucu (Sarı Pişik): Şükür elə ki, sən onun əlindən bu cür qurtarmısan!

III oxucu (Nəzər kişi): (Nəzər kişi çuvalı çiynində sarı pişiyini sığallaya-sğallaya gedir) Pişik deyil, pələngdir pələng!

*(İştirakçılar səhnəni tərk edirlər)*

I Aparıcı: Mirzə İbrahimovun əsərləri indi dünyanın bir çox xalqlarının dillərində mütaliə edilir. Onun təkcə "Gələcək gün" romanı iyirmidən çox dilə tərcümə olunmuşdur. Yazıçı özü də dünya ədəbiyyatının bir sıra görkəmli nümunələrini, o cümlədən Şekspirin "On ikinci gecə", "Kral Lir", Molyerin "Don Juan", A.P.Çexovun "Üç bacı", A.N.Ostrovskinin "Quduz pullar", N.Q.Çernışevskinin "Nə etməli" romanını Azərbaycan dilinə tərcümə etmişdir.

II Aparıcı: Biz Mirzə İbrahimovu görkəmli yazıçı-dramaturq kimi tanımış, alim-ədəbiyyatşünas kimi saysız-hesabsız elmi-tənqidi, publisistik əsərlərini oxumuşuq. Lakin yazıçı bir şair kimi də fəaliyyət göstərmişdir. "Qazılan buruq" adlı ilk şeirini 19 yaşında yazmışdı. Yazıçının bu şeirdən sonra daha da gözəl şeirləri oxucuların qəlbinə yol tapdı. Həmin şeirlərdə də Vətən məhəbbəti, insana, onun əməyinə və qələbəsinə inam layiqli yer tutmuşdu. "Candı mənə" şeirində şair sevgisinə və Vətən torpağına, "Candan əziz candır mənə", - deyir: odlarda yana-yana bir canana bir də Vətən torpağına tapınır.

*(Oxucu yazıçının "Candı mənə" şeirini söyləyir)*

Bu nə sevda, nə məhəbbət, necə tufandı mənə?!
Unudub odda yananlar özünü – yandı mənə!
Mənə çox görməsin əsla fələk ol dilbəri kim
Hökmü qanun sayılan bir ulu sultandı mən.
Bir səhər badi səba ilə o açdı qapımı
Dedim afət, başa sal – bu necə əhsandı mənə?!
Otağım doldu onun gül kimi saf ətri ilə
Dostların məclisi tək nəşəli meydandı mənə!
Bu nə adətdi gözəllərdə dönüb tez getdi,
O gedəndən bütün aləm qara zindandı mənə.
Dedim ey gül nə üçündür bu qədər zülmü sitəm?
Dedi eşqin əbədi verdiyi fərmandı mənə,
Çox öyünmə ki Füzuli elə Məcnunun var
Məni odlarda görən Məcnunun heyrandı mənə.
Bütlərə uyma, yetər, hətta tapın sən dedilər,
Haqq olan bilmədilər dünyada canandı mənə...
Dedim əsrari məhəbbətdə xəbərsiz cahil
Bütpərəstlik özü bil din ilə imandı mənə.
Tərifin bir kitaba sığmaz əgər vəfa etsəm
Sənsiz aləmdə abadlar belə virandı mənə.
Desələr həddini aşdım səni tərifdə gözəl,
De ki şair sözü xoş olsa da- hədyandı mənə.
Qoy deyim: bir butədə vurğunam, ey gül, yanasan
O vətən torpağıdır – candan əziz candı mənə...

I aparıcı: Mirzə İbrahimovun şeir yaradıcılığının böyük əksəriyyəti siyasi-fəlsəfi mövzuda yazdığı əsərlər təşkil edir. “Diyarımdı mənim”, “Tarixin hərəkəti”, “Odlar yurdu-ana Vətən” silsilə şeirləri şairin əsl vətəndaş, əsl sənətkar olduğunu bir daha təsdiqləyir.

II aparıcı: “Diyarımdı mənim” şairin Vətən haqqında qələmə aldığı ən yaxşı şeirlərdən biridir. Şair burada hər kəsin bir bütə səcdə qıldığını bildirir və deyir ki, Vətən də mənim məbədimdir, səcdəgahımdır. “Odlar yurdu-ana Vətən” şeiri Azərbaycan haqqında əvəzsiz poetik çələngdir.

**... Səməndərtək yanıram Vətənin eşqində mən,**
**Külümü Vətənimin torpağına siz qatın.**

I Aparıcı: **... Deyin, hansı mərd igid sevinməz bu diləyə;**
**Vətən ucalsın deyə keçməz əziz canından!**

*(Oxucu yazıçının “Diyarımdı mənim” şeirini söyləyir)*

Vətənin hüsnü əzəldən məni valeh eləmiş,
Ey gözəllər! Bilin o təkcə nigarımdı mənim.

Bir bütə səcdə qılır dünyada hər kəs, inanın
Məbədim, səcdəgahım – doğma diyarımdı mənim.

İnsan övladı həmişə nəyəsə meyl elyəmiş,
Kimisi candan olub mənsə bu şöhrət diləmiş.
Kimisi xəznə dolu mirvari zinət diləmiş
Dünyada bircə vətən dövləti varımdı mənim...

Min səadət dilədim hər elə, hər xalqa müdam,
Bir günəşdir nəzərimdə yaradan hər insan.
Eşqi, ilqarı təmiz yurduma oldum heyran,
Xoş günüm, xoş nəfəsim, cismdə canımdı mənim!...

I aparıcı: Gördüyünüz kimi Azərbaycan ədəbiyyatında xalq yazıçısı Mirzə İbrahimov təkrarsız sənət əsərləri yaratmışdır.

II Aparıcı: Mirzə İbrahimov xalqımızın tarixində XX əsrin ən böyük yazıçılarından biri kimi qalacaq, gələcək nəsil onun əsərlərinə dönə-dönə müraciət edəcəkdir.

***Qeyd:*** **Tədbirin daha gözəl keməsi üçün proyektor vasitəsilə yazıçının"Böyük dayaq" romanı əsasında çəkilmiş filmdən fraqmentlər nümayiş etdirilə bilər.**

**S O N**

*Əlavə 1*

**MİRZƏ İBRAHİMOVUN 100 illik yubileyinin keçirilməsi haqqında**

***Azərbaycan Respublikası Prezidentinin Sərəncamı***

2011-ci ilin oktyabr ayında Azərbaycanın xalq yazıçısı, dramaturq, ədəbiyyatşünas və publisist, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Mirzə Əjdər oğlu İbrahimovun 100 illiyi tamam olur. XX əsr ədəbiyyatımızın tanınmış simalarından biri kimi onun meydana gətirdiyi əsərlərdə dövrün və zamanın dolğun mənzərəsi yaradılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbi-estetik fikrin inkişafı sahəsində təqdirəlayiq xidmətlər göstərmiş Mirzə İbrahimovun 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə **qərara alıram**:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nairliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Azərbaycan Milli elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə xalq yazıçısı Mirzə İbrahimovun 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 iyul 2011-ci il

## Ədəbiyyat siyahısı

**İnternetdə:**
www.google.az

**<u>Əsərləri:</u>**

1. İbrahimov M.Seçilmiş əsərləri : İki cilddə I cild : Hekayə, Povest, Pyes.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2005.- 432 s.
2. İbrahimov M.Seçilmiş əsərləri: İki cilddə II cild .- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2005.- 520 s ;
3. İbrahimov M. Aşıq poeziyasında realizm.- Bakı: 1966.- 84 s.
4. İbrahimov M. Böyük satira ustası (Cəlil Məmmədquluzadə). Bakı: Azərnəşr, 1966.- 96 s.
5. İbrahimov M. Ədəbi qeydlər. Bakı: Azərnəşr, 1970.- 299 s.
6. İbrahimov M. Əsərləri: X cilddə I cild. Bakı: Yazıçı, 1978.- 512 s.
7. İbrahimov M. Əsərləri: X cilddə II cild. Bakı: Yazıçı, 1978.- 504 s.
8. İbrahimov M. Əsərləri: X cilddə III cild. Bakı: Yazıçı, 1979.- 592 s.
9. İbrahimov M. Əsərləri: X cilddə IV cild. Bakı: Yazıçı, 1979.- 506 s.
10. İbrahimov M. Əsərləri: X cilddə V cild. Bakı: Yazıçı, 1980.- 339 səh.
11. İbrahimov M. Əsərləri: X cilddə VI cild. Bakı: Yazıçı, 1981.- 376 s.
12. İbrahimov M. Əsərləri: X cilddə VII cild. Bakı: Yazıçı, 1981.- 332 s.
13. İbrahimov M. Əsərləri: X cilddə VIII cild. Bakı: Yazıçı, 1981.- 303 s.
14. İbrahimov M. Əsərləri: X cilddə IX cild. Bakı: Yazıçı, 1982 - 664 s.
15. İbrahimov M. Əsərləri: X cilddə X cild. Bakı : Yazıçı, 1983 - 507 s.
16. İbrahimov M. Gələcək gün: Roman.- Bakı: Maarif, 1983.- 472 s.
17. İbrahimov M. Gələcək gün.- Bakı: Çaşıoğlu, 2009.- 480 s.
18. İbrahimov M. Xəlqilik və realizm cəbhəsindən: Məqalələr.- Bakı: Azərnəşr, 1961.- 524 s.
19. İbrahimov M. Niyəsiz, necəsiz bir yazısan sən.- Bakı: Yazıçı, 1985.- 552 s.
20. İbrahimov M. Pərvizin həyatı: Povestlər və hekayələr.- Bakı: Gənclik, 1981.- 251 s.
21. İbrahimov M. Sarı sim: Xatirələr, məqalələr, oçerklər.- Bakı: Azərnəşr, 1958.- 301 s.
22. İbrahimov M.Tufanlara kömək edən bir qələm. Bakı: Azərnəşr, 1987.- 197 s.

**<u>Haqqında:</u>**

**Kitablarda**

1. Ənbiya oğlu Ə. İbrahimov Mirzə Əjdər oğlu // XX əsrin 100 görkəmli azərbaycanlısı. – Bakı: “ Sumqayıt ”, 2002.- S.74.
2. Quliyev E. M.İbrahimov Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri. - Bakı: ADPU, 1997.- 96 s.

3. Muğanna İ. Mirzə İbrahimov (Cənub həsrəti ilə) // Seçilmiş əsərləri: VI cilddə. II cild.- Bakı: "Avrasiya Press"; 2009.- S.413
4. Nəbiyev B. Xalq yazıçısı Mirzə İbrahimov // Xəzan vurmasın.- B.: Elm, 2006.- S.387-392.
5. Kürçaylı Ə. Dağlarda // Seçilmiş əsərləri.- Bakı: Şərq-Qərb ,2004.- S.340.

**Dövri mətbuatda**

1. Əsədova İ. O, Azərbaycanın işıqlı gələcəyinə inanırdı: 17 dekabr görkəmli yazıçı və ictimai xadim Mirzə İbrahimovun xatirə günüdür // Mədəniyyət.- 2010.- 17 dekabr.- № 89.- S.13.
2. Əzizov E. Mirzə İbrahimov və ana dili // Ədəbiyyat qəzeti.- 2011.- 18 fevral.- № 6.- S.1-2.
3. Xəlilzadə F. Sənət zirvəsinə inadlı yürüş: Mirzə İbrahimov haqqında // Azərbaycan.- 2009.- 6 mart.- S.7.
4. Məmmədov Ş. M.İbrahimov və folklor: Mirzə İbrahimov -95 // Azərbaycan müəllimi.- 2006.- 15 sentyabr.- S.7.
5. Mirzə İbrahimovun ictimai-siyasi həyatı // Respublika.- 2010.- 17 dekabr.- № 275.- S.5.; 18 dekabr.- № 276.- S.5.; 19 dekabr.- № 277.- S.2. ; 21 dekabr.- № 278.- S.4.; 26 dekabr.- № 283.- S.5.; 28 dekabr - № 284.- S.5.
6. Nəbioğlu S. Solmayan şöhrət: Mirzə İbrahimov müasirlərinin xatirələrində kitabı haqqında // Ədəbiyyat qəzeti.- 2009.- 16 yanvar.- S.5
7. Niyarlı M. Sevimli ədibimizi xatırlarkən // Yazıçı qadınlar.- 2009.- № 03-06 (10).- S.43-44.
8. Sərvi S. Bir ömür həsrət və 556 saylı "İş": Sosialist Əməyi Qəhrəmanı, xalq yazıçısı Mirzə İbrahimov haqqında // El.- 2011.-№ 4.- S.14-21.
9. Ülvi A. Flora Xəlilzadənin yeni kitabı: 1934-cü ildə "Azərbaycan Yazıçılar Cəmiyyəti" adı altında təşkil edilən "Azərbaycan Yazıçılar Birliyinin təşkilatçıları haqqında" kitabına rəy // Xalq qəzeti.- 2009.- 6 oktyabr.- № 221.- S.8.
10. Ülvi A. Mirzə İbrahimov xatirələr işığında: Teymur Əhmədovun "Mirzə İbrahimov xatirələr işiğında" kitbı haqqında // Xalq qəzeti.- 2009.- 6 iyun.- S.8.
11. Vəfalı A. Yarımçıq əsər - bütöv ömür: Mirzə İbrahimov - 100 // Ədəbiyyat qəzeti.- 2010.- 29 oktyabr.- № 42.- S.1.

Tərtib edəni: F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin müdiri N.M.Həşimova

Redaktor: F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru